## Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# İran bütün arsenalını Azərbaycan əleyhinə işə salıb

### Bütün hallarda molla rejimi riyakar məqsədlərinə çatmayacaq

Azərbaycanın İrandakı səfirliyində törədilmiş terror aktının ardınca molla rejiminin radikal mövqeyinə qarşı kəskin münasibətilə seçilən Milli Məclisin deputatı Fazil Mustafaya qarşı sui-qəsd rəsmi Tehranın ölkəmizin əleyhinə apardığı çirkin kampaniyasının məntiqi davamıdır.





Hər zaman anti-Azərbaycan mövqeyi ilə seçilən İran bu cinayət əməlləri ilə terrorçu mahiyyətini bir daha ortaya qoydu. Bunun səbəblərindən biri də bəzi dövlətlər kimi, İranın da Azərbaycanın Qafqazdakı lider mövqeyini və dünyada artan nüfuzunu həzm edə bilməməsidir. Həmçinin ötən müddətdə daim işğalçı Hayastanı dəstəkləyən İranın ölkəmizə qarşı hətta dövlət səviyyəsində belə terror aktları təşkil etməsi gözlənilən idi.

#### İran Vətən müharibəsindən sonra məkrli münasibətini açıq müstəviyə keçirib

Milli Məclisin deputatı Fəzail Ağamalı qəzetimizə bildirib ki, İranın Azərbaycana qarşı rəsmi elan edilməmiş total müharibəsi açıq və sistemli xarakter alıb: "Vaxtilə ölkəmizə qarşı qapalı düşmənçilik münasibətini ortaya qoyan İran 44 günlük Vətən müharibəsindən sonra bu məkrli münasibətini açıq müstəviyə keçirib. İkinci Qarabağ savaşında qazandığımız şanlı zəfərimizi və güclənən dövlətçiliyimizi həzm edə bilməyən molla rejimi bütün arsenalını artıq işə salıb. İran vaxtilə Azərbaycanda yaratmış olduğu agentura şəbəkəsinə fəaliyyət göstərmək əmrini verib, ölkə Prezidentinə, dövlət qurumlarımıza, bu ölkənin casus şəbəkəsini ifşa edən, onları üzə çıxarıb zərərsizləşdirən Dövlət Təhlükəsizlik Xidməti və onun rəhbərinə qarşı böhtanlar yağdırır".




Eyni zamanda sosial şəbəkələrdə, mətbuatda dövlətçiliyimizə qarşı təhdidlər səsləndirir,

Deputatın sözlərinə görə, molla rejimi öz aləmində bu üsulla xalqımızın dövlətimizə olan inamını sarsıdacağını düşünür. Digər tərəfdən isə, özünün yüksəksəviyyəli məmurları və zabitləri tərəfindən Azərbaycana guya, hədə-qorxu gəlir, Arazboyu istiqamətdə təlimlər keçirir. Paralel olaraq, Hayastanı himayə edir, haylara hərtərəfli yardım göstərərək onların təxribatlarını situmullaşdırır, eləcə də Fransa ilə əlbir olub ölkəmizə qarşı məkrli planlarını reallaşdırır.

Fəzail Ağamalı bildirib ki, bütün bunlarla kifayətlənməyən molla rejimi bu ölkənin planlarını ifşa və tənqid edən deputatlara, ayrı-ayrı şəxslərə qarşı da terror aktları həyata keçirir: "Rəsmi Tehran ən çirkin cinayətlərə müəllif imzasını atır. Tehrandakı səfirliyimiz gündüz vaxtı güllələnərək edilir. Daha acınacaqlısı isə odur ki, İran hökuməti cinayət törədən şəxsə gülməli bəhanələrlə haqq qazandırmağa çalışır. Bu yaxınlarda deputat Fazil Mustafaya qarşı törədilən terror aktı da İranın düşmənçilik münasibətinin ciddi göstəricilərindən biridir". Deputatın fikrincə, Fazil Mustafa İran əleyhinə olan kəskin yazıları, sərt münasibətilə fərqlənən siyasətçilərdəndir. Rəsmi Tehranın belə çirkin cinayət əməli törətməkdə məqsədi deputatı susdurmaq, onun həyatına qəsd etməklə ölkədə sabitliyi pozmaq, xalqın dövlətə qarşı inamına zərbə vurmaq, eyni zamanda İranın fəaliyyətini ifşa edən hər kəsin gözünü qorxutmaqdır. Bu, İranın rəsmi dairələrinin əsl terrorçu və antibəşəri mahiyyətini nümayiş etdirir.

F.Ağamalının sözlərinə görə, bu terror aktları Azərbaycan xalqını və dövlətini çəkindirmir, cəmiyyətimizdə xof və qorxu yaratmır. Çünki bu xalq 20 Yanvar kimi qanlı qətliamlardan keçib, sovet ordusunun təpədən-dırnağa qədər silahlanmış quldur dəstələri ilə əliyalın mübarizə aparıb. Küçələrdə qan tökülüb, şəhidlər verib, ancaq heç kim xalqımızın iradəsini qırmağa müvəffəq olmayıb: "Biz azadlıq sevən bir xalq kimi bu gün də dövlətimizin yanındayıq. Müdrik və müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin müvafiq qurumları Azərbaycan xalqının iradəsinə söykənərək molla rejiminin məkrli planlarını alt-üst edəcək və İran heç bir halda riyakar məqsədlərinə çatmayacaq".

#### Rəsmi Tehran təhdid dilində danışmağa son qoymalıdır

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yaranmış istənilən çətin vəziyyətdə İranın riyakar addımları ilə üzləşib. Ermənistana daim dəstək nümayiş etdirən cənub qonşumuzun Azərbaycana münasibəti işğalçılardan heç də fərqlənməyib. Son vaxtlar isə bu ölkə açıq mübarizə aparır, təxribatlar törədir, müxtəlif təhdidlər səsləndirir: "Martın 28-də həmkarımız Fazil Mustafanın güllələnməsi ilə bağlı hüquq-mühafizə orqanlarının yaydığı məlumatlara əsasən, bu hadisənin də İranla əlaqədar şəxslər tərəfindən törədildiyi məlum olub. Əlbəttə, hadisənin günü də təsadüfən seçilməyib. Hadisə günü ilə bağlı iki mühüm məsələni xüsusilə qeyd etmək lazımdır. Birincisi, həmin gün Azərbaycan təhlükəsizlik orqanlarının yarandığı gündən 104 il ötürdü, ikincisi isə martın 29-da İsraildə Azərbaycan səfirliyi açılacaqdı və bununla əlaqədar olaraq Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsraildə rəsmi səfərdə idi. İran bizə mesaj vermək istəyib ki, İsraildə səfirlik açacağınız təqdirdə Azərbaycana qarşı sərt addımlar atılacaq".

Deputatın sözlərinə görə, İran bütün təxribatları məqsədli şəkildə törədir. Rəsmi Tehran anlamalıdır ki, Azərbaycana qarşı təhdid dilində danışmağa, təxribatlar törətməyə son qoymalıdır. Əlbəttə, Azərbaycan əleyhinə yönəlmiş bütün addımlara adekvat cavab veriləcək.

"Elə deputatın güllələnməsi ilə bağlı ölkəmizin hüquq-mühafizə orqanları peşəkarlıq göstərib qısa müddətdə cinayətkarları aşkarladı. Hazırda isə cinayətlə bağlı təfərrüatlar araşdırılır. Hər kəs bilməlidir ki, Azərbaycan dövləti təhlükəsizliyimizin qorunması üçün lazım olan bütün addımları atır və bundan sonra da atacaq. Ölkəmizdə İranın radikal şəbəkələrinə qoşulmuş hər kəs araşdırılaraq məsuliyyətə cəlb ediləcək. Ona görə də bu yanlış yoldan geri çəkilmək, Azərbaycanın maraqlarına xidmət etmək lazımdır. Belə cinayət xarakterli cəhdlərin sonu yalnız hüquqi məsuliyyətlə nəticələnir", - deyə deputat qeyd edib.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.- 6 aprel.- S.8.